**« McDonald's» restoranının briqada üzvünün**
**vəzifə təlimatı**

**«McDonald's» restoranının briqada üzvünün vəzifələri.**

## 1. İş mövqeyi – satış masası:

1.1. Kassa əməliyyatlarını müəyyən olunmuş qaydada tam fərdi maddi məsuliyyətə dair Müqaviləyə müvafiq olaraq yerinə yetirir.

1.2. Kassada işləyərkən, aşağıdakıları yerinə yetirir:

- müştəriyə gülümsəyir və onu salamlayır;
- sifarişin qəbulunu, sifarişi yerindəcə istifadə olunacağı və ya özü ilə götürəcəyini dəqiqləşdirməklə aparır;
- əlavə yemək barədə deyir və ya artıq sifariş edilmiş yeməkdən artıq (bir məhsuldan çox olmamaqla) miqdarda sifariş təklif edir;
- alıcı ilə müəyyən olunmuş qaydada tam fərdi maddi məsuliyyətə dair Müqaviləyə müvafiq olaraq hesablaşma aparır;
- sifarişi alıcıya təqdim edir;
- müştəriyə alış üçün təşəkkür edir və yenidən gəlməyə dəvət edir;
- Alıcının sifarişini kassa terminalındakı informasiyaya tam uyğun (kassada vurulmuş sifarişə uyğun) olaraq dəstləşdirir.

## 2. İş mövqeyi - mətbəx

2.1. Restoranda istehsal edilən bütün məhsulun hazırlanması və qablaşdırılması prosedurlarını bilir və yerinə yetirir.
2.2. Mətbəxin iş mövqeləri üçün müşahidə-nəzarət vərəqələrinin bütün bəndlərini yerinə yetirir.
2.3. İş yerində yarımfabrikatların düzgün hazırlanıb qurtarmasına nəzarət edir.
2.4. Texnoloji rejimin hər hansı surətdə pozulması barədə rəhbərə xəbər verir.
2.5. Bütün yeməklərin hazırlanması üçün zəruri olan ərzaq və yarımfabrikatların ehtiyatını vaxtı-vaxtında bərpa edir.
2.6. Yuyucu və avadanlığın təmizliyinə nəzarət edir; «İşin gedişində təmizlə» prinsipinə əməl edir.

## 3. İş mövqeyi – zal

3.1. Zalda iş üzrə müşahidə-nəzarət vərəqindəki bütün bəndləri bilir və yerinə yetirir.
3.2. İş üçün zəruri olan inventarı xüsusi otaqda dəstləşdirir.
3.3. Müştəridən sonra masa üzərində qalmış bütün zibili dərhal yığışdırır.
3.4. Hər 15 dəqiqədən bir tualet otaqlarını yığışdırır.
3.5. Zərurət olduqda, müştərilərə kömək edir.
3.6. Zalda təmizliyə nəzarət edir.
3.7. Restoranın ətrafındakı ərazinin təmiziyinə nəzarət edir.

- papaq altına səliqə ilə yığılmış saçlar (kişilərdə yaxalığa dəyməməlidir);
- qara rəngli alçaqdaban, bağlı dəri ayaqqabı; idman ayaqqabılarına icazə verilmir.